Respublika.- 2021.- 4 fevral.

# GƏNCLƏR GÜNÜ QEYD EDİLDİ

## GƏNCƏ

Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Gənclər Evinin və Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə şəhərdə "Gənclər Günü"nə həsr olunan tədbir gerçəkləşib.



Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyev, başçının müavini Kamran Məhərrəmov, Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Həmid Nəsirov və fəal gənclər iştirak ediblər.

Azərbaycanın dövlət himninin səslənməsi ilə başlayan tədbirdə Vətən müharibəsi zamanı şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra şəhər rəsmiləri Gənclər Evinin istedadlı gənclərinin əl işlərindən ibarət olan sərgiyə baxış keçiriblər. Sərgidə Vətən müharibəsi şəhidlərinin rəsmləri, habelə "Nizami Gəncəvi ili" ilə bağlı əl işləri nümayiş etdirilib.

Ölkəmizdə həyata keçirilən gənclər siyasətindən danışan şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasət bu gün uğurla davam etdirilir. Praqmatik dövlət başçısı, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə gənclərin fərdi inkişafına təkan verən dövlət proqramları həyata keçirilir. Azərbaycan gəncləri ölkə həyatının bütün sahələrində təmsil olunur və özlərini doğruldurlar. O qeyd edib ki, 44 günlük müharibədə də qələbəmizi təmin edən gənc nəsil ən yüksək vətənpərvərlik hisslərinə malikdir.

Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Həmid Nəsirov 2020-ci ildə gənclərlə iş və idman sahəsində həyata keçirilən layihələrdən söz açıb, əldə olunan uğurlardan danışıb. Qeyd edib ki, 44 günlük müharibə zamanı Ermənistanın Gəncəni raket atəşinə tutması nəticəsində terror qurbanı olan mülki şəxslərin tanıdılması və təbliğatında gənclərin çox böyük rolu olub. Həmid Nəsirov Azərbaycan gəncliyinə göstərilən böyük qayğı və diqqətə görə ölkə Prezidenti cənab İlham Əliyevə, vitse-prezident Mehriban xanım Əliyevaya və şəhər rəhbərinə öz dərin təşəkkürünü bildirib.

Tədbirdə bir qrup gənc Gəncə şəhərinin ictimai həyatında fəal iştirakına və gənclərlə iş sahəsində səmərəli fəaliyyətinə görə icra hakimiyyətinin fəxri fərmanı ilə təltif olunub.

Tədbirin sonunda 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi ilə əlaqədar olaraq dahi şairin "Xəmsə"sini simvolizə edən 5 çinar ağacı əkilib.

## MİNGƏÇEVİR

Gənclər Günü münasibətilə Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, aparatın məsul şəxsləri, şəhər Gənclər və İdman İdarəsinin rəhbərliyi və fəalları Heydər Əliyev Mərkəzi qarşısında ucaldılmış ulu öndərin əzəmətli abidəsi önünə tər gül dəstələri qoymuşlar. Şəhər gəncləri ilə görüşdə Gənclər Günü münasibətilə təbrik edən icra hakimiyyətinin başçısı onlara işlərində uğurlar arzulamışdır. Qeyd etmişdir ki, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. O, öz həyatını qurarkən, ilk növbədə müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünür, əməli fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir.

Vurğulandı ki, ümummilli liderin gənclər forumunun təşkili ilə bağlı 1995-ci ildə irəli sürdüyü təşəbbüsdən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilmişdir. Forumlarda ulu öndər Heydər Əliyevin proqram xarakterli nitqlərində gənclərin qarşısında duran vəzifələr müəyyənləşdirilmiş, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində tədbirlərin görülməsi əlaqədar təşkilatların qarşısında mühüm vəzifə kimi qoyulmuşdur. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoymuşdur: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir". Bu



forum Azərbaycanda gənclər hərəkatının vüsət almasına təkan vermişdir. Ümummilli lider Heydər Əliyevin uzaqgörənliklə formalaşdırdığı gənclər siyasəti bu gün yeni mərhələyə qədəm qoymuşdur. Prezident cənab İlham Əliyev ümummilli liderin gənclər siyasətinə sadiqliyini qəbul etdiyi bütün qərarları ilə sübuta yetirmişdir. Dövlətimizin başçısı gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədi ilə 2005-2009-cu illəri əhatə edən Dövlət Proqramını təsdiq etmişdir. Dövlət quruculuğunda gənclərin iştirakına şərait yaradılması, gənclərin mənəvi inkişafı, onların vətənpərvərlik ruhunda tərbiyəsi, Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil alması, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan yüksək şərait böyük diqqət və qayğının nəticəsidir.

## YEVLAX

Yevlax Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyası Yevlax rayon təşkilatı Yevlax Şəhər Gənclər və İdman İdarəsi və Gənclər evi Sosial Xidmət Müəssisəsi ilə birlikdə Gənclər Günü münasibətilə videokonfrans keçirilmişdir. Videokonfransda Yevlax Şəhər İcra Hakimiyyəti başçısının müavini, YAP Yevlax rayon təşkilatının sədr müavini Elnarə Əzizova əsası ulu öndər tərəfindən qoyulmuş və bu gün cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasətindən danışmış, rayonda gənclərin inkişafı üçün yaradılan şəraitdən bəhs etmişdir. Qeyd etmişdir ki, Azərbaycanda ölkə rəhbərliyi tərəfindən gənc nəslə olan diqqət və qayğı hər zaman diqqət mərkəzində olmuş və hazırda da günü-gündən artmaqdadır. Bu gün ümummilli liderimiz Heydər Əliyev siyasətinin layiqçi davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab



İlham Əliyev öz fəaliyyətində gəncliyin sağlamlığı, təhsili, bilik və peşəkarlıqlarının artırılması, onların sosial problemlərinin həlli istiqamətində böyük işlər görür, Şəhər Gənclər və İdman İdarəsinin rəisi Binyamin Musayev, YAP Yevlax rayon təşkilatının aparat rəhbəri Rafiq Əliyev, "Gənclər evi" sosial xidmət müəssisəsinin direktoru Elgün Əzizov, Gənclərin Karyera və İnkişaf Mərkəzinin direktoru Elvin Əjdərli, YAP Yevlax rayon təşkilatı Gənclər Birliyinin sədri Maqsud Süleymanlı ölkəmizdə uğurla davam etdirilən gənclər siyasətindən danışmış, Gənclərin inkişafı, idmanın kütləviliyi istiqamətindən rayonda görülmüş işlərdən, əldə edilmiş uğurlardan bəhs etmişlər.

Sonda, Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev tərəfindən rayonun ictimai-siyasi həyatında fərqlənən, işlərində nailiyyətlər əldə edən bir qrup gənc Fəxri Fərman və hədiyyələrlə təltif edilmişdir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**